# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# QƏRAR

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 may tarixli 233 nömrəli Qərarı ilə təsdiq edilmiş "Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İstilik təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 222-VIIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 may tarixli 233 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 571; 2025, № 3, maddə 303, № 9, maddə 869) ilə təsdiq edilmiş "Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət Qaydası"na əlavə – "Azərbaycan Respublikasının enerji balansı"nın strukturu (əvvəlki iki ilin faktiki, cari ilin gözlənilən, növbəti ilin illik, rüblük və sonrakı üç il üzrə illik)"nun 6-cı hissəsindən "ötürülməsi," sözü çıxarılsın və həmin hissəyə "paylanması" sözündən sonra "o cümlədən ötürülməsi" sözləri əlavə edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, " 19 " " iyun " 2026-cı il

№ 185